# İrqçilik, dini ayrı-seçkilik, xristianlığın təhqiri

## Bunlarla Fransa Olimpiya Oyunları tarixinə kölgə saldı

Parisdə keçirilən Olimpiya Oyunlarında bir sıra xoşagəlməz məqamlar var və bunları açılış mərasimində də gördük, biabırçılıqların şahidi olduq. Yarışların açılış mərasimində ölkəmizə qarşı Parisin qərəzli yanaşmasını bir daha müşahidə etdik. Bununla bağlı Azərbaycan Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsinə rəsmi etiraz məktubu da göndərdilər. Fransız teleaparıcının Azərbaycana qarşı məkrli yanaşması isə elə Fransanın öz siyasəti, ayrı-seçkiliyi idi. İdmana dəxli olmayan fikirlər səsləndirmək, Azərbaycanı hərbi toqquşmalarda günahlandırmaq, təcavüzkar ölkə adlandırmaq, Ermənistanı isə təcavüzə məruz qalmış dövlət kimi təqdim etmək bu ölkənin qərəzli olduğunu bir daha ortaya qoydu. Qarabağın dirçəlməsini başqa formada dünyaya çatdırmaq Ermənistanın və havadarlarının məkrli niyyətlərindən hələ də əl çəkmədiklərini göstərir.

7

# İrqçilik, dini ayrı-seçkilik, xristianlığın təhqiri

## Bunlarla Fransa Olimpiya Oyunları tarixinə kölgə saldı



"Proseslər göstərir ki, Fransanın Olimpiya Oyunlarının keçirilməsinə hazırlığı çox aşağı səviyyədədir. Analitiklər, həmçinin KİV yarışlar zamanı həddən artıq problemlərin olduğunu göstərir və bir daha qeyd olunur ki, Paris Olimpiadaya evsahibliyi etməyə hazır deyildi".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Parisdə keçirilən Olimpiya Oyunlarında bir sıra xoşagəlməz məqamlar var və bunları açılış mərasimində də gördük, biabırçılıqların şahidi olduq. Yarışların açılış mərasimində ölkəmizə qarşı Parisin qərəzli yanaşmasını bir daha müşahidə etdik. Bununla bağlı Azərbaycan Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsinə rəsmi etiraz məktubu da göndərdilər. Fransız teleaparıcının Azərbaycana qarşı məkrli yanaşması isə elə Fransanın öz siyasəti, ayrı-seçkiliyi idi. İdmana dəxli olmayan fikirlər səsləndirmək, Azərbaycanı hərbi toqquşmalarda günahlandırmaq, təcavüzkar ölkə adlandırmaq, Ermənistanı isə təcavüzə məruz qalmış dövlət kimi təqdim etmək bu ölkənin qərəzli olduğunu bir daha ortaya qoydu. Qarabağın dirçəlməsini başqa formada dünyaya çatdırmaq Ermənistanın və havadarlarının məkrli niyyətlərindən hələ də əl çəkmədiklərini göstərir.

A.Nağıyev qeyd edib ki, irqçiliyin, milli və dini ayrı-seçkiliyin hər hansı formasının təbliği qadağan olsa da, fransızlar bunu da açıqca nümayiş etdirdilər: "Sanki Makron və ətrafı XXXIII Yay Olimpiya Oyunları tarixinə kölgə salmaq istəyirdilər. Fransızlar ənənələrinə sadiq qalaraq yarışı siyasətə çevirdilər. İdmançıların şəraitləri, Sena çayındakı vəziyyətlə bağlı problemlərin, narazılıqların həddən artıq çox olduğu bildirilir. Təbii ki, miqrantların, evsizlərin şəhərdən qovulması, əsasən Afrikadan olan miqrantların şəhər kənarına çıxarılması Paris Olimpiadasının üz qarasıdır. Digər biabırçılıqlar da hər gün özünü biruzə verir".

Deputat vurğulayıb ki, ən utancverici məsələlərdən biri də dini ayrı-seçkiliyin təbliği, xristianlığın təhqir olunması, Leonardo da Vinçinin "Sonuncu şam yeməyi"nin o şəkildə nümayiş etdirilməsidir. Katoliklər açılış mərasimini çox təhqiramiz hesab etdilər, çünki burada artıq dini təxribatdan söhbət gedirdi. Fransa Katolik kilsəsi xristianların istehza səhnələrini ehtiva edən bu hissələrə etirazlarını bildirdi. Bütün bunlar göstərir ki, Fransa üçün müqəddəs heç nə yoxdur.

"Azərbaycanın qazandığı nailiyyətlər - iki qızıl medal, Parisdə Azərbaycan himninin səsləndirilməsi, bayrağımızın yüksəklərə qaldırılması bir daha göstərdi ki, ölkəmiz xarici və daxili siyasətində müstəqildir. Fransanın Azərbaycana qarşı atdığı yaramaz addımlar, separatçılığı dəstəkləməsi, Ermənistan vasitəsilə Cənubi Qafqazda özünə yer tutmaq heç bir nəticə verməyəcək. Çünki bizim əsas məram və məqsədimiz sülhə xidmət etməkdir. Azərbaycan dəfələrlə idman yarışlarına evsahibliyi etməklə dünyaya ev sahibliyinin, qonaqpərvərliyin necə olduğunu göstərib", - deyə müsahibimiz bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.1, 7.